# «Məzun günü» keçirilmişdir

Mayın 29-da Qəbələ rayonunun 65 orta ümumtəhsil məktəbində "Məzun günü" mərasimləri keçirilmişdir. Mərasimlərdə 1458 məzun üçün məktəb həyatının son, müstəqil həyatın ilk zəngi çalınıb.

Onbirincilərin şərəfinə məktəblərdə keçirilən bayram tədbirlərində rayon icra hakimiyyətinin, təhsil şöbəsinin rəhbər şəxsləri, müəllimlər və valideynlər iştirak etmişlər. Son zəng tədbirlərində bildirilmişdir ki, ötən il rayonun abituriyentləri ali məktəblərə qəbulun səviyyəsinə görə respublikada ön sıralardan birini tutmuşlar. Bu nailiyyəti daha da artırmaq üçün məzunlardan yüksək əzmkarlıq tələb olunur.

Bayram tədbirlərində birinci və on birinci sinif şagirdləri bir-birilərinə gül dəstələri və hədiyyələr təqdim etmişlər. Xatırladaq ki, ötən il rayonun orta məktəblərini bitirən 1374 məzundan 458 nəfəri ali məktəblərə qəbul olunmuş, onlardan 27 nəfəri 600-dən yuxarı bal toplamışdır.

**«Qəbələ».**

# İstehsalat təcrübəsində

Ölkəmizdə turizmin inkişafı üçün əlverişli imkanlara malik bölgələrdən biri də Qəbələ rayonudur. Hələ 2002-ci ildə ümummilli liderimiz Heydər Əliyev Qəbələ şəhərinə səfəri zamanı iqlimi Kislovodskinin iqlimi ilə eyni olan bu bölgənin gözəlliyinə heyran olduğunu bildirmiş və bu rayonun təbii gözəlliyinin İsveçrəni xatırlatdığını bildirmişdir. Həmin dövrdən başlayaraq bu diyarın daha da çiçəklənməsinin bünövrəsi qoyulmuşdur. Son illər rayonumuzda gedən iqtisadi inkişaf və zəngin turizm potensialı Qəbələnin dünyanın tanınmış turizm mərkəzlərindən birinə çevriləcəyinə zəmin yaradır.

Turizm sektorunun inkişafı təkcə təbiətin bəxş etdiyi əsrarəngiz gözəlliklə və bu məkanda yerləşmiş otel və istirahət mərkəzləri ilə deyil, həm də bu sahədə çalışan kadrların bilik, bacarıq və səriştəsindən çox asılıdır. Bu məqsədlə rayonda 2009-cu ildən fəaliyyətə başlayan Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin kollektivinin üzərinə şərəfli və məsuliyyətli vəzifələr düşmüşdür. Tədris Mərkəzinin rəhbərliyi ilk tədris ilindən başlayaraq rayonda yerləşən otel və istirahət mərkəzləri ilə sıx əlaqə yaratmış, şagirdlərin istehsalat təcrübəsinin yüksək səviyyədə keçirilməsi



üçün bütün imkanlardan səmərəli istifadə etmişdir. Mütəmadi olaraq otellərin icraçı menecerlərinin, rəhbər kadrlarının mərkəzin şagird və istehsalat təlim ustaları ilə görüşləri təşkil edilmiş, tövsiyə, diskusiya xarakterli bu tədbirlərdə əsasən müasir dövrdə turizm sektorunda çalışacaq kadrların hansı tələbatlara cavab verməsindən bəhs edilmişdir.

Tədris Mərkəzində çalışan ali təhsilli istehsalat təlim ustaları və fənn müəllimlərinin tədris və təlimləri ilə aşpaz, ofisiant, barmen, bufetçi, qənnadçı-şirniyyatçı, mehmanxana inzibatçısı peşələri üzrə kadrlar hazırlanır.

2014—2015-ci tədris ilində mərkəzdə müxtəlif peşələr üzrə təhsil alan şagirdlər nəzəri dərsləri və istehsalat təlimini başa vurub rayonumuzun ən yuksək səviyyəli otel və istirahət mərkəzləri olan «Qafqaz» Resort, Riverside, Sport, Karvansaray, Yeddi Gözəl və s. otellərdə istehsalat təcrübəsinə başlamışlar.

İstehsalat təcrübəsindən əvvəl müəssisələrlə müqavilələr bağlanmış, şagirdlər təcrübə keçəcəyi sex və şöbələrdə istehsal prosesi, əmək şəraiti ilə yaxından tanış olmuşlar. Peşə təliminin son mərhələsi olan istehsalat təcrübəsi şagirdlərin bilik, bacarıq vərdişlərinin möhkəmləndirilməsində və təkmilləşdirilməsində mühüm rol oynayır. İstehsalat təcrübəsi müddətində şagirdlər tərəfindən görülən işlər haqqında hesabat istehsalat təlim ustalarına gündəlik formasında təqdim olunur.

İstehsalat təlimi ustaları mütəmadi olaraq otel və istirahət mərkəzlərində olur, təcrübə keçən şagirdlərlə yanaşı, işlə təmin olunmuş məzunlarla əlaqə saxlayırlar. Rayonda turizmin inkişafı bizi gələcək işlərimizə daha da məsuliyyətlə yanaşmağa sövq edir.

**Mərifət ASLANOV,**
**tədris mərkəzinin istehsalat təlimi ustası.**

# Ramazan–11 ayın sultanı

Mübarək Ramazan ayı yaxınlaşır. İyun ayının 17-də Ramazan ayının birinci günüdür. Müsəlmanlar hicri-qəməri təqviminin doqquzuncu ayı olan Ramazan ayında oruc tutmalıdırlar. Ulu Yaradan Qurani-Kərimdə buyurur: «Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi: İlin ayları arasında Ramazanın xüsusi yeri var. Qurani-Kərim on bir ayın sultanı olan Ramazanda nazil olmuşdur. Allahın sonuncu elçisi Məhəmməd salavatullaha peyğəmbərlik bu ayda verilmişdir. Məkkə Əl mükərrəmənin fəthi bu aya təsadüf edir.

Müqəddəs kitabımızda buyurulduğu kimi, müsəlmanlar Ramazan ayı ərzində günün işıqlı vaxtında oruc tutaraq yeməkdən, içməkdən və əyləncəli və zövq gətirici işlərdən uzaq olmalıdırlar. Qurani- Kərimdə yazılır: «Şübh açılınca, ağ sap, qara sapdan fərqlənməyincəyə qədər yeyib için, sonra gecəyə kimi orucunuzu tamamlayın!

Oruc tutmaq hər bir müsəlmana fərz olsa da, heç də hamı üçün məcburi deyil. Uşaqlar, taqətsiz qocalar, xəstələr, hamilə qadınlar, döyüşçülər, əsirlikdə, səfərdə olanlar və uşaq əmizdirən analar oruc, tutmaya da bilərlər. Oruc tutaraq zəifləyən və sağalması uzanan xəstə bu fərzi yerinə yetirməyi dayandırıb ilin başqa vaxtında oruc tuta bilər. Döyüşdə və ya əsirlikdə olduğuna görə oruc tutmayanlar sonra münasib bir vaxtda onun əvəzini tutmalı və ya fidiyə verməlidirlər. Orucu qəsdən pozanlar isə onun əvəzini tutmaqla yanaşı, tövbə etməli və kəffarəsini ödəməlidirlər. Kəffarə isə 60 gün oruc tutmaq, yaxud 60 yoxsulu yedirməkdir. 60 günlük kəffarə orucuna bir günlük qəza orucu da əlavə olunur.

Oruc tutan şəxs çimə, ağzını və burnunu yaxalaya, dişlərini təmizliyə bilər. Unutqanlıqdan qida qəbul edən müsəlmanın orucu batil hesab olunmur, o orucunu davam etdirə bilər.

Oruc tutmağın mahiyyəti qadağalara tabe olmaqdan ibarət deyil. Oruc müsəlman üçün həm də ulu Xaliqə daha da yaxınlaşmaq, ona sədaqətini sübut etmək və əvvəlki günahlarının bağışlanmasına nail olmaq imkanı deməkdir. Hədisi-şərifdə deyilir ki, Ramazan boyu iman və ümidlə oruc tutan müsəlmanın keçmiş günahları bağışlanır.

Bütün bunlarla bərabər, orucluğun əxlaqi-mənəvi əhəmiyyəti də böyükdür. Oruc tutan insan qeybət qılmaq, söyüş söymək, davadalaş salmaq kimi pis əməllərdən çəkinməlidir. Adamlar arasında bir-birinə məhəbbət, hörmət, şəfqət, dostluq, qardaşlıq, həmrəylik kimi duyğular hökm sürməlidir.

Oruc tutan insanlar düşmənçiliyə, umu-küsüyə son qoymalıdırlar. Hamı bir-birinə münasibətdə mərhəmətli olmağı, bir-birini bağışlamağı bacarmalıdır. Allah-Təala oruc tutmağı buyurmaqla bütün insanların dinc, mehriban şəraitdə yaşamasının zəruriliyini xatırladır. Bu isə hər bir insan, bütövlükdə cəmiyyət üçün olduqca vacibdir.

Ramazan müsəlmanın mənəvi inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Məlumdur ki, yemək, içmək və sair kimi cismani ehtiyaclar insan həyatında güclü amillərdəndir. İlin bir ayında oruc tutmaqla müsəlman cismani ehtiyacların hökmranlığından azad olur və mənəvii-ruhi cəhətdən təkmilləşmək imkanı əldə edir. Beləliklə, orucluq insanın mənəvi-ruhi dəyərləri daha dərindən mənimsənməsinə şərait yaradır.

Oruc insanda dözüm, iradə və təmkin tərbiyə edir. Ramazan ayında oruc tutmağı buyuran Tanrı insanı sınağa çəkir. Varlı kasıbın sosial vəziyyətini dərk edir, ona münasibətdə xeyirxah olmağın vacibliyini anlayır. Orucluq insanı pis əməllərdən çəkindirməklə yanaşı, yaxşı işlər görməyə sövq edir. Ramazanda hamı eyni vaxtda oruc tutur, birlikdə namaz qılır və bununla insanlar Allah qarşısında bərabərliyi bir daha təsdiqlənir.

Mübarək Ramazan ayında Tanrıya edilən dualar daha tez qəbul olunandır. Vətən torpağının düşmən tapdağından qurtarması, didərgin soydaşlarımızın yurd-yuvalarına qayıtması üçün dua edək!

**A. CƏLİLOV.**

# *Nic qəsəbə 3 saylı tam orta məktəbin idmançıları*

Nic qəsəbə 3 saylı tam orta məktəbin şagirdləri idmana böyük maraq göstərirlər. Qeyd edək ki, bu marağın əsas səbəbkarı məktəbin idman müəllimi Qalib Muradovdur. Qalib müəllim şagirdlər arasında vaxtaşırı idman yarışları keçirir, hansı şagirdin hansı idman növünə olan marağını üzə çıxarır və həmin sahə üzrə onları inkişaf etdirməyə çalışır.

Bu yaxınlarda rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə məktəblilər arasında rayon birinciliyi uğrunda yarışlar keçirilmişdir. Məktəblilərimizin idmana olan marağı nəticə vermişdir.

400 metr məsafəyə qaçış üzrə XI sinif şagirdləri İlkin Həsənaliyev I yerə, uzununa tullanmaqda isə Pərviz Məmmədli III yerə çıxmışdır. Hər iki qalib rayon gənclər və idman idarəsinin diplomu və medalı ilə mükafatlandırılmışdır.

Məktəb rəhbərliyi də idmançılarımızın rayon birinciliyindəki qələbələrini yüksək qiymətləndirmişdir.

**Əhməd MƏMMƏDLİ,**
**məktəbin müəllimi.**